## *Prezident İlham ƏLİYEV:*

# Son illərdə Bakı şəhərində görülmüş işlərin, tikilmiş körpülərin, yol qovşaqlarının misli-bərabəri yoxdur

***Azərbaycan Prezidenti İlham Əliyev vaxtaşırı ölkədə müxtəlif strukturların rəhbərlərini qəbul edir, görülən işlərlə, qarşıda duran vəzifələrlə maraqlanır, mövcud çətinliklərin aradan qaldırılması istiqamətində tövsiyələrini çatdırır. Dövlətimizin başçısının Bakı Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri Vüsal Kərimlinin hesabatını dinləməsi, adıçəkilən sahədə nəzərə çarpan problemlərin həlli ilə bağlı konkret tapşırıqlar verməsi də bu baxımdan mühüm önəm daşıyır.***

Qəbul zamanı bir daha aydın oldu ki, ölkə Prezidentinin rəhbərliyi ilə son illərdə Azərbaycanda sosial-iqtisadi inkişafın təmin olunması istiqamətində mühüm layihələr icra edilib və bu, hazırda da uğurla davam etdirilir. Gerçəkləşdirilən sosial siyasətin əsas istiqamətlərindən biri olan vətəndaşlara keyfiyyətli ictimai nəqliyyat xidmətlərinin göstərilməsi sahəsində görülən genişmiqyaslı tədbirlər bunun bariz ifadəsidir.

Artıq bir neçə ildir ki, nəqliyyat parklarının müasirləşdirilməsi, sərnişinlərin müntəzəm marşrut avtobuslarından təhlükəsiz və rahat istifadəsini təşkil etmək üçün dövlət başçısının təşəbbüsü ilə davamlı islahatlar reallaşdırılır. İctimai nəqliyyat sistemində yenilik olan Nəqliyyat Mübadilə Mərkəzlərinin – HUB-ların yaradılması bu istiqamətdə atılan növbəti addım kimi diqqət çəkir. Ötən ilin sentyabr ayında istifadəyə verilən “Koroğlu” Nəqliyyat Mübadilə Mərkəzi bunun əyani nümunəsidir. Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılışı olan həmin nəqliyyat qovşağı hərəkətin intensiv olduğu Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişməsində, Bakı qəsəbələri istiqamətində hərəkət edən çoxsaylı avtobusların dayanacaq kimi istifadə edildiyi yerdə yaradılıb.

“Koroğlu” Nəqliyyat Mübadilə Mərkəzinin fəaliyyətə başlaması ilə bir sıra problemlər artıq həll edilib, “Koroğlu” metrostansiyasının ətrafında uzun illər davam edən avtobusların necə gəldi dayanması nəticəsində yaranan xaotik vəziyyətə, avtomobillərin təhlükəli manevrlər etməsinə və dayanacaqların azlığı səbəbindən yaranan sıxlığa son qoyulub.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin tapşırığına əsasən, hazırda paytaxtın digər ərazilərində də nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində işlər görülür. “Avtovağzal”, “Dərnəgül”, “Lökbatan”, “28 May” nəqliyyat mübadilə mərkəzlərində də bu cür şəraitin yaradılması nəzərdə tutulur. Artıq Binəqədi, Zabrat, Mərdəkan, Qala, Günəşli və Zığ ərazilərində kiçik HUB-ların yaradılması ilə bağlı hazırlıq işləri aparılır.

Ümumiyyətlə, son illər dövlət başçısının müvafiq sərəncamlarına, tapşırıq və göstərişlərinə uyğun olaraq Bakının qəsəbə və kəndlərində müasir yollar salınır, vətəndaşların rifahı üçün konkret addımlar atılır, nəqliyyat sistemi yenilənir, bu sahənin maddi-texniki bazası müasir səviyyədə qurulur.

Bütün bunlar sosial məsələ olmaqla yanaşı, Azərbaycanın iqtisadi qüdrətinin də göstəricisi sayıla bilər. Şəhərimizin sürətli sosial-iqtisadi inkişafı ilə ahəngdarlıq təşkil edən nəqliyyat konsepsiyası dövlətin öz vətəndaşlarına verdiyi yüksək dəyərin bariz nümunəsidir.

Prezident İlham Əliyev tərəfindən Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimlinin qəbulu zamanı bu barədə ətraflı danışılıb. Dövlətimizin başçısı deyib: “Bakı Nəqliyyat Agentliyi keçən ili yaxşı nəticələrlə başa vurub, görülən işlərin bir hissəsi ilə mən şəxsən tanış olmuşam. Hesab edirəm ki, agentlik üçün keçən il uğurlu olubdur. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, hələ görüləsi işlər çoxdur.

***(ardı 5-ci səhifədə)***

## *Prezident İlham ƏLİYEV:*

# Son illərdə Bakı şəhərində görülmüş işlərin, tikilmiş körpülərin, yol qovşaqlarının misli-bərabəri yoxdur

*(əvvəli 1-ci səhifədə)*

> ***Əminəm ki, ilin sonunda biz şəhər nəqliyyatını daha da inkişaf etmiş halda görəcəyik. Çünki bir daha demək istəyirəm, bu, insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı üçündür. Onu da bildirməliyəm ki, dövlət xətti ilə böyük məbləğə alınan avtobuslar, əlbəttə, kommersiya baxımından bəlkə də 10 il, 20 ildən sonra özünü doğruldacaq. Biz bunu ona görə edirik ki, insanlar şəhər nəqliyyatından, avtobuslardan təhlükəsizlik şəraitində və rahat şəkildə istifadə etsinlər.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Son beş il ərzində şəhərimizə yüzlərlə yeni avtobus gətirilib. Bu avtobusların hamısı dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Bu, bizim şüurlu seçimimizdir. Çünki Bakıda ən müasir texnologiyalar tətbiq edilməlidir, o cümlədən nəqliyyat vasitələrinin dünyanın ən yüksək standartlarına cavab verməsi əsas şərtlərdən biridir. Onu da bildirməliyəm ki, beş il bundan əvvəl Bakıya gətirilmiş ilk xarici istehsal olan avtobuslar, hətta o avtobusların istehsal olunduğu ölkələrdə hələ xətlərə çıxmamışdı. Yəni, ən müasir avtobuslar gətirilir. Əlbəttə ki, bu, şəhər nəqliyyatının böyük dərəcədə yaxşılaşdırılması istiqamətində çox önəmli addımdır. Mənim göstərişimlə hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayrılır və hər il orta hesabla 300 avtobus Bakı Nəqliyyat Agentliyinin xətti ilə şəhərimizə gətirilir. Beləliklə, biz avtobus parkını tədricən müasirləşdiririk. Eyni zamanda, mənim özəl şirkətlərə də tövsiyəm ondan ibarət idi ki, onlar da öz avtobus parklarına yenidən baxsınlar. Görürəm ki, bəzi şirkətlər bu istiqamətdə önəmli addımlar atırlar".



Prezident İlham Əliyev daha sonra ölkəmizə avtobusların gətirilməsi ilə yanaşı, yol-nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun qurulmasının da mühüm önəm daşıdığını diqqətə çatdırıb və bu istiqamətdə hazırda kompleks tədbirlər görüldüyünü vurğulayıb. Yol infrastrukturuna görə, Azərbaycanın dünya miqyasında 27-ci yerdə qərarlaşdığını, bunun Davos Forumunun hesabatında öz əksini tapdığını xatırladıb.

Bakı Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri Vüsal Kərimli dövlət başçısına hesabatında şəhər nəqliyyatı ilə bağlı həyata keçirilən tədbirlər barədə danışarkən, keçən il paytaxtda fəaliyyət göstərən 2200 avtobusla 801 milyon sərnişin daşındığını, sərnişinlərin rahatlığı məqsədilə ümumi daşıyıcıların sayının 65-dən 37-yə endirildiyini, son beş il ərzində 855 avtobusun yeniləndiyini, onlardan 600-nün dövlət başçısının tapşırığı ilə xarici ölkələrdən gətirildiyini və bununla da avtobus parkının 40 faizə yaxın müasirləşdirildiyini qeyd edib. Nəqliyyat agentliyinin rəhbəri, həmçinin ölkə Prezidentinin tapşırığına əsasən hər il 300 avtobus gətirilməklə yaxın üç ildə parkın yenilənməsinin 100 faizə çatdırılmasının planlaşdırıldığını bildirib.

V.Kərimli hesabatında yuxarıda qeyd edilənlərlə yanaşı, xaricdən yeni avtobuslar gətirilərkən, həmin maşınların ətraf mühitə daha az zərər verən sıxılmış təbii qazla işləmələrinə önəm verildiyini, dövlət başçısının tapşırığına əsasən şəhərin müxtəlif yerlərində avtobuslar üçün habların yaradılmasının diqqət mərkəzində saxlanıldığını, sürücülərin peşə hazırlığı və iş rejiminə ciddi nəzarət olunduğunu vurğulayıb.

Bakı Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri, eyni zamanda, yol infrastrukturu üzrə də bir sıra işlər görüldüyünü, avtobusların, təcili tibbi yardım və yanğınsöndürən maşınların tıxaclarda qalmaması, həmçinin həmin nəqliyyat vasitələrinin fasiləsiz hərəkətini təmin etmək üçün yollarda xüsusi zolaqlar ayrıldığını, 2018-ci ildə taksi xidmətinə dair yeni tələblər müəyyənləşdirildiyini, cari ilin birinci yarısında "kölgə iqtisadiyyatı"nın və qeyri-formal iş rejiminin aradan qaldırılması məqsədilə bütün marşrut xətlərində işləyən avtobuslarda ödənişin kart sistemi ilə aparılmasının təmin ediləcəyini bildirib.

Prezident İlham Əliyev qəbulda şəhər nəqliyyatının təkmilləşdirilməsi istiqamətində görülən işlərdən danışarkən, bütün nəqliyyat növləri arasında koordinasiya işlərinin aparıldığını müsbət hal kimi dəyərləndirib, Bakıda böyük yol infrastrukturu layihələri icra edilməsinin paytaxtın tıxac probleminin həllinə müsbət təsir göstərdiyini diqqətə çatdırıb.

Dövlət başçısı məsələ ilə bağlı tövsiyələrini də verib: "Ancaq bununla yanaşı, nəqliyyat vasitələrinin sayı artır. Bu da əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasından xəbər verir. Statistika var, hər il ölkəmizə gətirilən və artıq hazırda ölkəmizdə istehsal olunan nəqliyyat vasitələrinin sayı artmaqdadır. Əhalimiz artır, Bakı şəhərinin əhalisi artır. Ona görə, şəhər nəqliyyatımız bu artıma uyğun şəkildə inkişaf etməlidir və bu artımla uzlaşmalıdır. Odur ki, bundan sonra metro tikintisi, yeni qovşaqların inşası, Bakı dairəvi dəmir yolunun çəkilişinin başa çatdırılması, avtobus nəqliyyatının səmərəli fəaliyyəti - bütün bu nəqliyyat seqmentləri vahid bir mexanizm kimi işləməlidir. Əsas məsələ insanların yola sərf edəcəyi vaxtın azaldılmasıdır".

Prezident İlham Əliyev qəbulda sərnişinlərin təhlükəsizliyi, sürücülərin hazırlanması, onların tibbi müayinəsinin aparılması və iş qrafikinə ciddi əməl olunması, parkinq yerlərinin yaradılması, paytaxtətrafı qəsəbələrdə avtobus nəqliyyatı ilə bağlı mövcud problemlərin aradan qaldırılması kimi məsələlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin önəmini xatırladıb.

Dövlət başçısı sonda paytaxtda bu istiqamətdə görüləsi işlərin çox olduğunu, bununla bağlı cari ilin sonunadək qarşıda duran vəzifələrin gerçəkləşdiriləcəyinə əmin olduğunu vurğulayıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 20 fevral.- S.1;5.